# Səməd Behrəngi adına mükafatlar təqdim olunub



Azərbaycan Yazıçılar Birliyinin Natavan klubunda Birliyin Cənubi Azərbaycan Ədəbiyyatı Komissiyasının təsis etdiyi Səməd Behrəngi adına ədəbi mükafatın sayca 8-ci təqdimat mərasimi keçirilib.

Tədbirdə hər iki taydan elm və ədəbiyyat nümayəndələri, şairlər və araşdırmaçılar iştirak edib. Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli, Azərbaycan Yazıçılar Birliyinin Beynəlxalq Əlaqələr üzrə katibi Səlim Babullaoğlu, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, "Varlıq" jurnalının baş redaktoru Məhəmmədrza Heyət, Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin sədri Qafar Cəfərli, şairə Nəsibə İsrafilqızı, ədəbiyyatşünas Zöhrə Əsgərova, Fəxrəddin Ziya, Güney Azərbaycanın tanınmış ədəbiyyatçısı Məsud Haray, tanınmış tədqiqatçı Həsən Kərimzadə, Azərbaycanın Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına mədəniyyət mərkəzinin rəhbəri Samir Abbasov və Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına institutunun aparıcı elmi işçisi, Kərimulla Məhəmmədzadə təltif olunublar. Tədbiri giriş sözü ilə açan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Səməd Behrənginin həyatı və yaradıcılığı barəsində geniş məlumat verərək mükafatın əhəmiyyətini vurğulayıb. Daha sonra Yazıçılar Birliyi sədrinin müşaviri, Cənubi Azərbaycan Ədəbiyyatı Komissiyasının sədri yazıçı-tədqiqatçı Sayman Aruz da öz növbəsində Cənubi Azərbaycan ədəbiyyatının təbliğatının genişləndirilməsininin vacibliyinə diqqət çəkib.

Sonda mükafatlar təqdim olunub.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 25 iyun.- S. 14.**